**AZƏRBAYCAN RESPUBLİKASININ FÖVQƏLADƏ HALLAR NAZİRLİYİ**
**TİKİNTİDƏ TƏHLÜKƏSİZLİYƏ NƏZARƏT DÖVLƏT AGENTLİYİ**
**TƏSİSATDANKƏNAR DÖVLƏT EKSPERTİZA BAŞ İDARƏSİ**

AZ 1014, Bakı şəhəri, Füzuli küç., 64B
Tel: (994 12) 512-20-90, (994 12) 512-20-85

18 iyun 2026-cı il | № 3-18-7/2-2174/2026

**Naxçıvan Muxtar Respublikası**
**Culfa Rayon İcra Hakimiyyətinə**

Məlumat üçün: **Naxçıvan Muxtar Respublikası**
**Fövqəladə Hallar Nazirliyinin**
**Dövlət Tikintidə Təhlükəsizliyə**
**Nəzarət İdarəsinə**

Məlumat üçün: **Naxçıvan Muxtar Respublikası**
**Dövlət Energetika Xidmətinə**

19.06.2025-ci il tarixli 5-23/2-528/2025 nömrəli məktubunuz ilə təqdim olunmuş "Naxçıvan Muxtar Respublikası, Culfa rayonu, 132/110/35/10 kV-luq "Culfa" yarımstansiyası" üzrə layihə sənədlərinə aid, 12.06.2026-cı il tarixli 42123 nömrəli ekspertiza rəyi hazırlanmışdır.

Rəy İdarəmizdə səlahiyyətli nümayəndəniz tərəfindən əldə edilə bilər.

**Hörmətlə,**
**Rəis** — **Təyyar Hüseynli**

**Qurumun adı:** AR FHN Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsi
**İmzalanma tarix:** 18 iyun 2026-cı il
**Sənədin nömrəsi:** 3-18-7/2-2174/2026
**İmzalayan şəxs(lər):** Təyyar Hüseynli, idarə rəisi

**Qeyd:** "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcısı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

Scanned with CamScanner

Fövqəladə Hallar Nazirliyi

37997

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi
Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi

## Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsi

Təsdiq edirəm:

İdarənin rəisi____________________ T. Hüseynli

Naxçıvan Muxtar Respublikası, Culfa rayonu,
132/110/35/10 kV-luq "Culfa" yarımstansiyası

# EKSPERTİZA RƏYİ

№ 42123 12.06.2026

Sifarişçi:

Naxçıvan Muxtar
Respublikası Dövlət
Energetika Xidməti

Layihəçi:

«İMPULS GROUP» MMC
«Kare Proje Consulting» MMC

BAKI - 2026

Scanned with CamScanner

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi
Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi
TƏSİSATDANKƏNAR DÖVLƏT EKSPERTİZA BAŞ İDARƏSİ

# EKSPERTİZA RƏYİ

12.06.2026-cı il — № 42123

| | | |
|---|---|---|
| Sənədin tipi | : | Tikinti layihəsi |
| Tikintinin adı və yerləşdiyi yer | : | Naxçıvan Muxtar Respublikası, Culfa rayonu, 132/110/35/10 kV-luq "Culfa" yarımstansiyası |
| Sifarişçi | : | Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti |
| Layihəçi | : | - «İMPULS GROUP» MMC<br>Lisenziya qeydiyyat № EL-709/2023, 30.08.2023-cu il<br>- «Kare Proje Consulting» MMC<br>Lisenziya qeydiyyat № İN/L-432/2018, 09.10.2018-ci il |
| Layihənin Baş Mühəndisi | : | S.Qurbanov |
| Maliyyə mənbəyi | : | Büdcə |
| Təqdim edilmiş tikintinin dəyəri | : | Resurs metodu ilə tərtib olunmuş yekun smeta üzrə (ƏDV-siz) cəmi [redacted] manat, o cümlədən TQİ [redacted] manat |

## Təqdim olunan sənədlər:

Naxçıvan Muxtar Respublikası Culfa Rayon İcra Hakimiyyətinin 19.06.2025-ci il tarixli 5-23/2-528/2025 nömrəli məktubu ilə ekspertiza olunmaq üçün Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti tərəfindən layihə üzrə aşağıdakı sənədlər təqdim edilmişdir:

- baş plan və memarlıq bölməsi;
- konstruksiya bölməsi;
- konstruktiv hesabat;
- Texniki rəy;
- mühəndisi-geoloji hesabat;
- Mühəndis-Axtarış Mərkəzinin rəyi;
- mühəndisi-kommunikasiya bölmələri;



Scanned with CamScanner

- tikintinin təşkili layihəsi;
- smeta sənədləri;
- izahat yazısı.

## Layihələndirmə üçün əsas

- Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti tərəfindən təsdiq edilmiş "Layihə tapşırığı".

## Ümumi hissə

Layihədə, Naxçıvan Muxtar Respublikası, Culfa rayonu, 132/110/35/10 kV-luq "Culfa" yarımstansiyasının tikintisi nəzərdə tutulmuşdur.

## Baş plan

Baxılan ərazi mürəkkəb həndəsi formadadır. Tikinti üçün ayrılmış torpaq sahəsi Bakı şəhərindən 570 km cənub-qərbdə Naxçıvan Muxtar Respublikası Culfa rayonu ərazisində yerləşir.

Baş plana əsasən sahədə ümumi idarəetmə mərkəzinin yenidən qurulması, nəzarət-buraxılış məntəqəsi, yeraltı nasosxana, 50,0m$^3$-luq təsərrüfat-içməli yeraltı su anbarının, 2x54.0m$^3$-luq yeraltı yanğın su anbarları, 20m$^3$ və 30m$^3$-luq yağyığan, dizel generatoru, 2 ədəd 16MVA-lıq, 1 ədəd 50 MVA-lıq transformator və tullantıların saxlanması üçün meydançalar, 2 ədəd 63 kVA X.S. transformatoru, 110 kV-luq APQ, daxili hasar, xarici daş hasar, darvaza və şambo layihələndirilmişdir.

Ərazidə, həmçinin hasarın tikintisi, xarici işıqlanma, 132 kV-luq APQ-da quraşdırma işləri, kabel xəndəklərinin tikintisi, abadlıq (şaquli planlaşdırma, yaşıllaşdırma) və s. işlər nəzərdə tutulmuşdur.






## Memarlıq həlli

*Ümumi idarəetmə mərkəzi*

Planda kənar oxlar arasında ölçüləri 28,00x12,80 m olan bina, kürsü + 1 mərtəbəli, düzbucaqlı formada inşa edilmişdir.

Binanın odadavamlılıq dərəcəsi – II, məsuliyyətlilik səviyyəsi – II normal, funksional yanğın təhlükəsi sinfi – Φ5.1 qəbul edilmişdir.

Mərtəbədə təyinatına görə müxtəlif yerləşgələr nəzərdə tutulmuşdur.

Divarlar – kürsü mərtəbəsində mişarlanmış əhəngdaşı, 1-ci mərtəbədə qazobeton bloklarla hörülmüşdür.

Dam örtüyü – ağac konstruksiyalar üzrə profnastillə döşənmişdir.

Fasadlar – əsasən suvaq üzərində fasad boyası ilə boyanmışdır.

Şərti ±0,000 səviyyəsi binanın 1-ci mərtəbəsinin döşəməsi qəbul edilmişdir, bu da 102.700 mütləq qiymətinə bərabərdir.



*1-ci mərtəbənin planı*



*Fasad görünüşü*



Scanned with CamScanner

*Nəzarət buraxılış məntəqəsi*

Planda kənar oxlar arasında ölçüləri 3,4x6,4 m olan bina, 1 mərtəbəli, düzbucaqlı formada nəzərdə tutulmuşdur.

Binanın odadavamlılıq dərəcəsi – II, məsuliyyətlilik səviyyəsi – II normal, funksional yanğın təhlükəlilik sinfi – Φ4.3 qəbul edilmişdir.

Divarlar – mişarlanmış əhəngdaşından layihələndirilmişdir.

Dam örtüyü – monolit dəmir-beton tava üzərində rulon tipli materiallardan qəbul edilmişdir.

Fasad divarlarının əsasən suvaq üzrə fasad boyası ilə rənglənməsi nəzərdə tutulmuşdur.

Şərti ±0,00 səviyyəsi 101,610 mütləq qiymətinə bərabərdir.



*1-ci mərtəbənin planı*



*Fasad görünüşü*

*110 kV-luq APQ*

110 kV-luq açıq paylayıcı qurğuya yuva portalları, ifrat gərginlik məhdudlaşdırıcı və müxtəlif təyinatlı dayaqlar, 110 kV-luq dayaq izolyatoru, metal traverslər, 110 kV-luq 3 qütblü ayrıcı, 10 kV və 35 kV kabel muftaları və OPN, ildırımötürücü, 110 kV-luq eleqaz açarı üçün dayaq, transformator və dizel generatoru üçün bünövrələr, metal tor hasarlar və s. daxildir.



*Kabel quyuları*

Qurğuların daxili ölçüləri 1,5x1,5x1,5 (h) və 1,0x1,0x1,0 (h) m olmaqla, dibləri, divarları və örtükləri monolit dəmir-betondan, yeraltı qəbul edilmişdir.

*Nasosxana*

Qurğunun daxili ölçüləri 4,0x4,0x3,34 (h) m olmaqla, dibi, divarları və örtüyü monolit dəmir-betondan, yeraltı qəbul edilmişdir.

*2x54 m$^3$-luq yanğın su anbarları*

Qurğuların daxili ölçüləri 4,20x4,20x3,34 (h) m olmaqla, dibləri, divarları və örtükləri monolit dəmir-betondan, yeraltı qəbul edilmişdir.

*50 m$^3$-luq təsərrüfat-içməli su anbarı*

Qurğunun daxili ölçüləri 4,20x4,20x3,34 (h) m olmaqla, dibi, divarları və örtüyü monolit dəmir-betondan, yeraltı qəbul edilmişdir.

*30 m$^3$-luq yağyığan*

Qurğunun daxili ölçüləri 3,0x4,0x2,0 (h) m olmaqla, dibi, divarları və örtüyü monolit dəmir-betondan, yeraltı qəbul edilmişdir.

*20 m$^3$-luq yağyığan*

Qurğunun daxili ölçüləri 3,0x4,0x2,0 (h) m olmaqla, dibi, divarları və örtüyü monolit dəmir-betondan, yeraltı qəbul edilmişdir.

*Şambo*

Qurğunun daxili ölçüləri 3,00x5,00x3,40 (h) m olmaqla, dibi, divarları və örtüyü monolit dəmir-betondan, yeraltı qəbul edilmişdir.

*Hasar*

Metal şəbəkəli daş hasarın uzunluğu L=425,80 m, hündürlüyü H=1,80 m qəbul edilmişdir.

*Metal tor hasar (darvaza və alaqapı ilə)*

Hasarın ümumi uzunluğu L=243,8 p/m qəbul edilmişdir.

*Ekspertizanın aparılma müddətində layihənin baş plan və memarlıq bölməsi üzrə aşağıdakı iradlar müəyyən edilmişdir:*

| Sıra № | İradın məzmunu | İstinad sənədləri |
|---|---|---|
| | Baş plan | |
| 1 | Baş plan dəsti (Relyefin təşkili planı, Bölüşdürmə planı, Abadlaşdırma planı və Torpaq kütləsinin planı) eləcə də mövqe palnı təqdim edilməyib. | AZS QOST 21.508-2010 |
| | Memarlıq həlli | |
| | Ümumi idarəetmə mərkəzi (kürsülü, 1 mərtəbəli) | |
| 2 | Künc ştampları normalara uyğun tərtib edilməyib. Layihə təşkilatının adı, norma kontrolun imzası və sifarişçi qrafasında memarlıq həlli (MH) yazılmayıb. | AZS ГОСТ 21.101-2010 |



Scanned with CamScanner

| | | |
|---|---|---|
| 3 | Damın konstruktiv qatlarının düyünləri, çatı tirlərinin düzülüş planı və material sərfi cədvəli təqdim edilməyib. | Vərəq MH - 10 |
| 4 | Yerləşgələrin eksplikasiyası cədvəli normalara uyğun tərtib edilməyib. | AZS ГОСТ 21.101-2010 |
| 5 | Ümumi göstəricilər vərəqində dam örtüyü 8-ci bənddə cardaq tipli, 12-ci bənddə isə yastı dam kimi yazılıb. | Vərəq MH - 1 |
| 6 | İzahat yazısında binanın fasadlarının keramoqranit tavalarla üzlənməsi, ümumi göstəricilərdə isə aqlay üzlük tavalarla üzlənməsi və sement-qum məhlulu ilə suvanması qeyd olunur. Düzəliş edilməlidir. | Vərəq MH - 1 |
| | *Nəzarət-buraxılış məntəqəsi* | |
| | - İrad yoxdur. | |

**Qeyd:** - iradlar işçi qaydada aradan qaldırılmışdır;
- statistik qeydiyyat və texniki inventarlaşma məqsədi ilə obyektin sahəsi və digər texniki göstəricilər tikinti başa çatdıqdan sonra dəqiqləşdirilir.

*Tikintinin təşkili bölməsi*

- İrad yoxdur.

## Konstruktiv həll

Ekspertizaya təqdim olunmuş "İmpuls Group" MMC və "Kare Proje Consulting" MMC tərəfindən hazırlanmış memarlıq və konstruksiya bölmələri üzrə layihələrə, "Azərdövlətsənayelayihə" DLİ-nun tərtib etdiyi binasının mövcud vəziyyəti haqqında Texniki rəyə və S.Ə.Dadaşov adına ETLKİMİ-in Müayinə Protokoluna əsasən aşağıdakılar müəyyənləşdirilmişdir:

***Ümumi idarəetmə mərkəzi (İnzibati bina)*** – planda düzbucaqlı formada, "1–6" və "A–C" oxlararası 28.00 x 12.80 m ölçüdə, kürsülü + 1 mərtəbəli inşa edilmişdir. Mərtəbə hündürlükləri kürsü mərtəbəsində 2.20 m, 1-ci mərtəbədə 4.00 m-dir. Əsas yükdaşıyan konstruksiyaları monolit dəmir-beton lentvarı özüllərdən (h=40 sm), sütunlardan (40x60 sm), rigellərdən (40x50 (h) sm), tirlərdən (25x40 (h) sm), mərtəbəarası və dam örtük tavalarından (h=20 sm), əhəngdaşı divar hörgüsündən (t=40 sm) ibarətdir. Dam örtüyü, çardaq tipli ağac konstruksiyalar üzrə metal kirəmitdəndir.



***110 kV-luq Açıq Paylayıcı Qurğular (APQ)*** – 3.407.2-162 və 3.407-108 seriyalı müxtəlif markalı Yuva və Şın portalları, projektor qüllələri, transformatorlar və digər avadanlıqlar altı özüllər və metal dayaqlar inşa edilmişdir.

Yeni layihələndirilən ***Nasosxana, Yanğın su anbarı, Təsərrüfat-içməli su anbarı, Yağyığan, Şambo*** – qurğuların dibləri, divarları və örtük tavaları müxtəlif ölçülərdə *monolit dəmir-betondan* layihələndirilmişdir.



Bina və qurğuların layihələndirilməsində aşağıdakı *ümumi məlumatlardan* istifadə olunmuşdur.

Mühəndisi-geoloji tədqiqatların nəticələrinə görə özül əsasını şərti hesabi təzyiqi $R_0=2.40$ *kqq/sm²* olan *bərk konsistensiyalı Gilcə* qruntu təşkil edir. Yeraltı sulara rast gəlinməmişdir. Binanın məsuliyyət dərəcəsi-II-dir.

Dəmir-beton konstruksiyalarda beton B25, armaturlar A500C və A240 sinifli qəbul edilmişdir.

Bina karkasının hesablaması Lira-Sapr proqramında layihələndirmə normalarının tələbləri nəzərə alınmaqla aparılmışdır.

O cümlədən:

- *daimi və müvəqqəti faydalı yüklərin normativ qiymətləri* - AzDTN 2.1-1 tələbləri üzrə;
- *zəlzələ yükləri* - AzDTN 2.3-1-ə əsasən sahənin seysmikliyi $S=9_2$ bal, qruntun sinfi G=II qəbul edilmişdir.

**Konstruksiya bölməsi**

| Sıra № | Məzmun | İstinad sənədləri |
|---|---|---|
| | *Ümumi idarəetmə mərkəzi (İnzibati bina)* | |
| 1 | Bina karkasının fəza hesablamaları (model) təqdim edilməyib. | Hesablama |
| 2 | Sm-1 markalı dəmir-beton sütunların armaturlanmasında cizgilərdə 4Ø22 + 8Ø20, Müayinə Protokolunda isə 4Ø22 + 4Ø20 armaturlar göstərilmişdir. Habelə, Sm-2 sütunlarda cizgilərdə 4Ø22 + 6Ø18, Müayinə Protokolunda isə 4Ø22 + 4Ø18 armaturlar göstərilmişdir. Dəqiqləşdirilməlidir. | Cizgilər, Müayinə Protokolu |
| | *110 kV-luq Açıq Paylayıcı Qurğular (APQ)* | |
| 3 | Qurğu və özüllərin müayinəçi tərəfindən təstiqlənmiş cizgiləri təqdim edilsə də müayinə sənədlərində APQ-lar haqqında məlumat verilməmişdir. Aydınlaşdırılmalıdır. | Cizgilər,Texniki Rəy, Müayinə Protokolu |
| | *Nasosxana, Yanğın su anbarı, Təsərrüfat-içməli su anbarı, Yağyığan, Şambo, Hasar* | |
| | - İrad yoxdur. | |
| | *30.07.2025-ci il tarixində işçi qaydada təqdim edilmiş layihə sənədləri üzrə:* | |
| 4 | 2 bəndində göstərilənlər burada təkrarlanır. | |
| 5 | 3 bəndinə aid təqdim edilmiş "Arayış"da "110 kV-luq Açıq Paylayıcı Qurğularının özülləri iki pilləli olmaqla stəkan tiplidir. Həndəsi ölçüləri 1400x1400x400 (birini pillə), 700x700x1200 mm (ikinci pillə) olmaqla inşa edilmişdir", qeyd olunub. | "Azərdövlətsənayelayihə" DLİ-nun Naxçıvan filialının Memarlıq-inşaat şöbəsinin konstruksiya sektorunun "Arayış"ı |
| 6 | 2 bəndinə aid 12.08.2025-ci il tarixində təqdim edilmiş "Arayış"da "Təkrar baxış zamanı müəyyən edildi ki, binanın zirzəmi və 1-ci mərtəbəsində inşa edilmiş monolit dəmir-beton sütun S-1 4(dörd) ədəd diametri 22 mm və 8(səkkiz) ədəd diametri 20 mm olan polad millərlə, sütun S-2 isə 4(dörd) ədəd diametri 22 mm və 6(altı) ədəd diametri 18 mm olan polad millərlə armaturlanmışdır" qeyd edilmişdir. | S.Ə.Dadaşov adına ETLKİMİ-in 12.08.2025-ci il tarixli "Arayış"ı |



Scanned with CamScanner

| | | |
|---|---|---|
| 7 | Müayinədə "Binanın yükdaşıyan konstruksiya elementlərində zədələrə müşahidə edilmədiyi" və istifadə olunan betonun və armaturların təqdim edilmiş konstruksiya layihəsinə uyğun olduğu göstərilmişdir. | Texniki rəy, Müayinə Protokolu |
| 8 | Bina karkası "Lira SAPR" proqramında işçi qaydada təqdim olunmuş statiki və dinamiki fəza hesabatı yoxlanılmış, hesabi sxem, yüklər, deformativ göstəricilər Tikinti Norma və Qaydalarının tələblərini ödəyir. | Hesablama |
| **Qeyd:** - iradların işçi qaydada aradan qaldırıldığını, habelə müayinə və hesablama nəticələrini (8 və 9 bəndləri) nəzərə alaraq, tikintisi tamamlanmış bina və qurğuların layihələrinin konstruksiya bölməsini qənaətbəxş hesab etmək olar. | | |

***Mühəndis-Axtarış Mərkəzinin rəyi***

Mühəndisi-geoloji axtarış işlərinin hesabatı "Azərdövlətlayihə" DBLİ-nin nəzdindək Mühəndis-Axtarış 26.05.2026-cı il tarixli 008/26 nömrəli rəyi ilə təsdiq edilmişdir.

## Mühəndisi-kommunikasiya bölmələri:

***Su təchizatı və kanalizasiya***

| Sıra № | İradın məzmunu | İstinad sənədləri |
|---|---|---|
| | *Yarımstansiya binası* | |
| 1 | Zirzəmiyə enən pilləkənlərdən zirzəmi səviyyəsində yağış suyunun kənarlaşdırılması məqsədi ilə tədbirlər nəzərdə tutulmayıb. | Layihə |
| | *NBM* | |
| 2 | Layihənin işlənməsində Azərbaycan Respublikasında qüvvədə olmayan normativ sənədlərə istinad edilmiş-dir. | Layihə |
| 3 | Su kəmərinin binaya girişi ilə kanalizasiyanın çıxışı arası məsafə normativə uyğun qəbul edilməyib. | AzDTN 2.11-3, b.5.4.6 |
| | *Nasosxana*<br>*Təs-içməli su nasosları: Q=2x2.5 m³/saat, H=35.0 m, N=2x0.55 kvt - 2 ədəd (1 iş., 1 eh.)* | |
| 4 | Texnoloji boruların bağlanma sxemi plana uyğun verilməyib. | ГОСТ 21.601-2011, п. 7 |
| | *Təsərrüfat-içməli su anbarı – 50 m³* | |
| 5 | Nasosların məhsuldarlığına uyğun olaraq, sorma borusunun diametrinə düzəliş edilməlidir. | AzDTN 2.11.-1, b.10.10. |
| 6 | Su buraxıcı (boşaltma) boru kəmərinin diametri normativə uyğun seçilməyib. | AzDTN 2.11.-1, b. 12.5.6. |
| 7 | İşçi cizgilərə uyğun olaraq material və avadanlıqların təsnifatında düzəliş edilməlidir. | Layihə |

**Qeyd:** - iradlar işçi qaydada aradan qaldırılmışdır;
- xarici, sahədaxili su kəməri və kanalizasiya şəbəkəsinin cizgiləri təqdim edilməyib.



***Elektrik təchizatı***

| Sıra № | İradın məzmunu | İstinad sənədləri |
|---|---|---|
| | 132/110/35/10 kV-luq yarımstansiya binası ($P_h$=37,568 kVt) | |
| 1 | Elektrik yüklərinin hesabatı normativə uyğun aparılmayıb. | NK 400 nömrəli Qərar |
| 2 | Magistral xətlərin en kəsikləri və avtomat açarlarının ayırma cərəyanları elektrik yüklərinə uyğun seçilməyib (BPL). | EQQQ cəd.6 |
| 3 | İşçi cizgilərə uyğun olaraq material və avadanlıqların təsnifatında düzəliş edilməlidir. | Layihə |
| | *132/110/35/10 kV-luq "Culfa" YS*<br>*(1x50MVA+2x16 MVA)* | |
| 4 | Əlavə təqdim edilməlidir:<br>- 110 kV-luq APQ avadanlıqlarının torpaqlanma cizgisi;<br>- yeni quraşdırılan bütün avadanlıqların quraşdırma cizgiləri;<br>- xüsusi sərfiyyat transformatorunun quraşdırma cizgiləri;<br>- yeni quraşdırılan güc transformatorunun quraşdırma cizgiləri. | EQQQ b.1.8.10.; 4.2.2; 4.2.12 |
| 5 | 110 kV-luq APQ-nin kəsimlərində yüksək gərginlik sıxaclarının sayına yenidən baxılmalıdır. | EQQQ b.1.6.4 |
| 6 | Dəyişikliklərə və işçi cizgilərə uyğun təsnifat yenidən işlənilməlidir. | Layihə |

**Qeyd:** - iradlar işçi qaydada aradan qaldırılmışdır.

*Nəzarət-buraxılış məntəqəsi ($P_h$=6,8 kVt), Nasosxana ($P_h$=5,25 kVt)*
*Baş plan (xarici işıqlanma, $P_{h\ işıq}$=3,6 kVt)*

- İrad yoxdur.

***İsitmə və ventilyasiya***
*Yarımstansiya binası, NBM*

- İrad yoxdur.

**Qeyd:** - Tikinti işlərinə başlamazdan əvvəl istilik izolyasiya qatının müvafiq qaydada sınaq nəticələri əldə edilməlidir (ГОСТ 17177-94, ГОСТ 30244, ГОСТ 7076-87, ГОСТ 25898-2012, ГОСТ 12.1.044-89 (ИСО 4589-84));
- hesabatla müəyyənləşdirilən istilik izolyasiya qatları memarlıq düyünlərində göstərilməlidir;
- hesabatların nəticəsinə əsasən enerji effektivliyi sinfi C – normal təyin olunmuşdur.

***Rabitə və siqnalizasiya***
*132/110/35/10 kV-luq "Culfa"yarımstansiya binası*
*Nəzarət-buraxılış məntəqəsi*
*Yanğın siqnalizasiyası*

- İrad yoxdur.



Scanned with CamScanner

*Rabitə və siqnalizasiya - telefon, kompüter və videomüşahidə şəbəkələri*

- İrad yoxdur.

*Baş plan*
*Videomüşahidə şəbəkəsi*

- İrad yoxdur.

*Avtomatik idarəetmə sistemi*

- İrad yoxdur.

**Qeyd:** - xarici rabitə şəbəkəsinin cizgiləri təqdim edilməyib.

## Smeta bölməsi

Smeta və iş həcmlərinə olan iradlar işçi qaydada aradan qaldırılmışdır.

## N Ə T İ C Ə:

«Naxçıvan Muxtar Respublikası, Culfa rayonu, 132/110/35/10 kV-luq "Culfa" yarımstansiyası»nın resurs metodu ilə tərtib olunmuş yekun smetaya əsasən ƏDV-siz cəmi – 10494,588 min manat (on milyon dörd yüz doxsan dörd min beş yüz səksən səkkiz manat), o cümlədən TQİ – 2379,876 min manat və qaytarılan məbləğ – 13,074 min manat dəyərində olan layihə-smeta sənədləri razılaşdırılır.

| | |
|---|---|
| İdarənin rəis müavini: | O.Y.Əfəndiyev |
| Baş Plan və Memarlıq şöbəsinin mütəxəssisi, şöbə müdiri v.i.e.: | T.Y.Quliyeva |
| Mühəndis-kommunikasiya və texnoloji həllər şöbəsinin müdiri: | B.İ.Hüseynov |
| Smeta şöbəsinin mütəxəssisi, şöbə müdiri v.i.e.: | T.M.Əfəndiyeva |
| Baş Plan və Memarlıq şöbəsinin baş mütəxəssisi: | A.Q.Məhərrəmov |
| Mühəndis-kommunikasiya və texnoloji həllər şöbəsinin baş mütəxəssisi: | H.M.Əliyev |
| Konstruksiya şöbəsinin mütəxəssisi: | N.V.Bağırzadə |
| Baş Plan və Memarlıq şöbəsinin mütəxəssisi (tikintinin təşkili layihəsi üzrə): | N.X.Sevilmiş |
| Mühəndis-kommunikasiya və texnoloji həllər şöbəsinin mütəxəssisi: | F.H.Əliyeva |
| Mühəndis-kommunikasiya və texnoloji həllər şöbəsinin mütəxəssisi: | A.Y.Maxulov |



| | |
|---|---|
| Mühəndis-kommunikasiya və texnoloji həllər şöbəsinin mütəxəssisi: | T.İ.Rəhimzadə |
| Smeta şöbəsinin mütəxəssisi: | G.M.Xanlarova |
| Mühəndis-kommunikasiya və texnoloji həllər şöbəsinin ştatdankənar mütəxəssisi: | R.H.Abıyev |

*Tərtib etdi: E.A.Hacıyev*